No: 01 2025
http://doi.org/0000-0000-0000-0000
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# BAKI ŞƏHƏRİNİN ÖLKƏ MƏSKUNLAŞMA SİSTEMİNDƏ ROLU

**Zakir Eminov**[1]
ORCID ID: 0009-0005-4893-3613
*zakir_eminov@mail.ru*

**Zeynəb Mirzəyeva**[2]
ORCID ID: 0000-0001-7000-1875
*mirzeyeva.zeyneb.92@mail.ru*

[1,2]ARETN akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Bakı, Azərbaycan

**Yazışılan müəllif: zakir_eminov@mail.ru; Tel.: + (994) 50 590 43 88*

## XÜLASƏ

Bakı şəhəri paytaxt mövqeyi, yüksək sosial-iqtisadi inkişafı ilə ölkə məskunlaşma sisteminin formalaşmasında əsas rol oynayır. Şəhərin sosial-iqtisadi və demoqrafik inkişafı onu ölkənin tək və əsas urbanizasiya mərkəzinə çevrilməsinə gətirib çıxarır. Nəticədə Azərbaycanın digər şəhər və rayonları ilə müqayisədə Bakı şəhərində əhali sürətlə artır, məskunlaşmada qütbləşmə prosesi davam edir. Siyahıyaalma materiallarına əsasən, 2019-cu ilədək Bakı şəhərinə ölkə daxilindən 425,3 min nəfər əhali miqrasiya etmişdir. Onların 393,7 min nəfəri və ya 92,6%-i şəhərlərdən, 31,6 min nəfəri və ya 7,4%-i kəndlərdən gələnlər təşkil etmişdir. Məqalədə tədqiqat aparılan 1979-2023-cü illər ərzində Bakı şəhərində əhali sayının artımı və urbanizasiya səviyyəsi ölkənin əhali sayı çox olan şəhərləri (Gəncə, Naxçıvan, Sumqayıt, Şirvan və Mingəçevir) üzrə eyni göstəricilərlə müqayisə olunmuşdur. Həmçinin şəhərin ölkə məskunlaşma sistemindəki rolu bir əsrdən çoxdur əsas gücə sahib olduğu - iqtisadi, sosial və siyasi aspektdə təhlil olunmuş, tədqiqat nəticəsində aşkar olunan problemlərin həlli yolları əsaslandırılmışdır.

**Açar sözlər:** *Bakı şəhəri, məskunlaşma sistemi, şəhər əhalisi, iqtisadi inkişaf, sosial inkişaf*

## Giriş

Məskunlaşma əhalinin müəyyən sistem şəklində ərazi daxilində yaşayış məntəqələrində yerləşməsidir. Əhalisinin sayına, təsərrüfat funksiyalarına, sosial-iqtisadi və mədəni inkişafdakı roluna görə fərqlənən qarşılıqlı əraziləri (şəhər və kəndləri) əhatə edir [8, s.4]. Şəhərlər məskunlaşmanın mürəkkəb tarixi, sosial-iqtisadi forması və aparıcı mərkəzləridir [14, c.92].

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri MDB-nin ən böyük sənaye, elm və mədəniyyət mərkəzlərindən biridir. Abşeron yarımadasında, Xəzər dənizi akvatoriyasında zəngin karbohidrogen ehtiyatlarının olması, Qafqazı Mərkəzi Asiyadan ayıran Xəzər dənizi sahilindəki mövqeyi, habelə üç tərəfdən yaylalarla əhatə olunması, amfiteatr relyefi onun coğrafi mövqeyinin səciyyəvi əlamətlərini müəyyənləşdirir [10, s.135].

Bütün dünya şəhərlərində olduğu kimi, Bakı şəhərində də məskunlaşma tarixi qədim zamanlara gedib çıxsa da, onun ərazicə böyüməsi və əhalisinin sayının artması sənaye inqilabından sonra baş verdi. XIX əsrin 70-ci illərində Bakıda neft sənayesinin sürətli inkişafı onun makro və mezo mövqeyini dəyişdirdi. Hətta neft sənayesindən əvvəl onun inkişafını ləngidən nisbətən əlverişsiz mikro mövqeyi də şəhərin sürətli inkişafına maneə ola bilmədi.

## Material və metod

Tədqiqatın aparılmasında müqayisəli təhlil, sistem-struktur, tarixi-coğrafi təhlil, statistik-riyazi və s. tədqiqat metodlarından istifadə edilmişdir. İşin statistik əsasını Dövlət Statistika Komitəsinin məlumatları təşkil edir: “Azərbaycanın demoqrafik göstəriciləri”, “Azərbaycanın regionları”, “Azərbaycanın sənayesi” və s. İşi həyata keçirmək üçün həm ölkə, həm də Bakı şəhəri üzrə statistik məlumatlar sistemləşdirilmiş, strukturlaşdırılmış, müqayisəli şəkildə təhlil edilmişdir. Həmçinin, məqalənin hazırlanmasında Azərbaycan Respublikasının alim və tədqiqatçılarının əhalinin

məskunlaşması və ona təsir edən demoqrafik, sosial-iqtisadi amillərin qiymətləndirilməsinə dair əsərlərindən, xarici alim və tədqiqatçıların elmi araşdırmalarından istifadə olunmuşdur.

**Alınan nəticələr və onların müzakirəsi**

Bakı şəhəri həm paytaxt funksiyasını, həm də iqtisadi-idarəetmə funksiyasını bir ərazidə birləşdirir. Yüksək sosial-iqtisadi inkişafı onu ölkənin tək və əsas urbanizasiya mərkəzinə çevrilməsinə gətirib çıxarır. Bakı və onun ətraf qəsəbələrinin inkişafı ölkənin inkişafına və məskunlaşma sisteminin formalaşmasına bir başa təsir göstərir. Daha yaxşı iş imkanları, təhsil, tibbi xidmətlərin yüksək səviyyəsi və s. kimi amillər bir əsrdən çoxdur ki, şəhərə miqrasiyanı stimullaşdırır, nəticədə şəhərdə əhalinin sayı artır. Beləki, 19-cu əsrin sonlarından bu günə qədər şəhərin əhalisi 20,9 dəfə, eyni dövrdə Azərbaycan əhalisi isə 5,6 dəfə artmışdır [1, s.13]. Ölkə məskunlaşma sistemində XIX əsrin sonlarından davam edən qütbləşmə prosesi getdikcə daha da kəskin xarakter alır. Müşahidə olunan bir tərəfli inkişaf, həm regional balansın pozulmasına, həm də şəhər də sıxlığın artmasına gətirib çıxarır.

Bakı şəhərinin inkişafında Sovet dövründə mərkəzin sıxlaşması, strukturun mürəkkəbləşməsi kimi meyillər müşahidə olunmuşdur. Müstəqillik illərində isə bu meyillərə şəhər ətrafı ərazilərin yüklənməsi və boş torpaqların yaşayış sahələrinə çevrilməsi halları da əlavə olundu. Ümumilikdə, əhalinin məskunlaşmasında ən əhəmiyyətli struktur dəyişiklikləri mərkəz-periferiya mühitində baş verir. Müasir dövrdə Böyük Bakıda əhalinin artım tempinin tədqiqi göstərir ki, şəhər mərkəzində əhali şəhərətrafına nisbətən zəif templə artır: müstəqillik illərində şəhər mərkəzində əhali sayı 25,1%, şəhər ətrafında isə 50,1% artmışdır. Şəhərətrafı əhalinin sürətli artımı regionlardan gələn əhali hesabına formalaşır. Miqrasiya edən əhali mərkəzdə evlərin baha olması nəticəsində şəhər ətrafında məskunlaşmalı olur. Bu gün Bakı şəhərinin qəbul etdiyi miqrantların əsas hissəsi ölkənin digər şəhərlərindən gələnlər təşkil edir. 2019-cu ilin siyahıyaalma materiallarına əsasən, 2019-cu ilədək Bakı şəhərinə ölkə daxilindən 425,3 min nəfər əhali miqrasiya etmişdir. Onların 393,7 min nəfəri və ya 92,6%-i şəhərlərdən, 31,6 min nəfəri və ya 7,4%-i kəndlərdən gələnlər təşkil etmişdir [3, s.95].

Məşhur rus şəhər coğrafiyaşünası G.M. Lappo qeyd edir ki, iri şəhərlərlə yanaşı, orta və hətta kiçik şəhərlər də ölkənin dəstək çərçivəsinin mərkəzləri kimi çıxış edə bilər [12, s.351]. Hal-hazırda, Azərbaycanın məskunlaşma sistemindəki əsas tendensiyalar orta şəhərlərin əksəriyyətinin fəaliyyətində çoxlu sayda problemlərin olması səbəbindən artan deqradasiya prosesləridir. Bunlardan ən mühümləri: əlverişsiz demoqrafik vəziyyət, sosial-mədəni sahənin və səhiyyənin qeyri-kafi inkişaf səviyyəsi, işsizliyin artması və s. problemlərdir.

Hətta nəinki kiçik və orta şəhərlərdə Bakıdan başqa ölkənin digər böyük şəhərlərində də eyni hal müşahidə olunur. Cədvəl 1-də biz Bakı şəhərini hal-hazırda ölkədə Bakıdan sonra əhali sayı çox olan beş şəhərlə müqayisə etmişik. Digər rayon mərkəzləri və respublika əhəmiyyətli şəhərlərdə əhali sayı daha azdır və Bakı ilə müqayisədə daha böyük fərqlər mövcuddur. Cədvəldən də göründüyü kimi, son statistik məlumatlara görə, Bakı şəhər əhalisinin sayı Gəncədən 7,1 dəfə, Sumqayıtdan 5,5 dəfə, Mingəçevirdən 22,8 dəfə, Şirvandan 27,4 dəfə, Naxçıvandan 24,1 dəfə çoxdur. Şəhərlərin urbanizasiyalaşma səviyyəsində də ciddi fərqlər nəzərə çarpır. Belə ki, Bakı şəhərində ölkə üzrə ümumi şəhər əhalisinin 42,3%-i məskunlaşıb. Bu rəqəmlər Gəncə üçün 5,9%, Sumqayıt 7,7%, Mingəçevir 1,9%, Şirvan 1,5%, Naxçıvan 1,8%-dir. Sumqayıtdan başqa digər şəhərlərin ümumi şəhər əhalisində payı tədricən azalır.

**Cədvəl 1**. *Şəhərlərdə əhali sayının dəyişməsi*

| | 1979 | 1989 | 1999 | 2009 | 2019 | 2023 |
|---|---|---|---|---|---|---|
| Bakı | 1533,2 | 1794,9 | 1788,9 | 2045,8 | 2330,4 | 2344,9 |
| Gəncə | 231,7 | 280,6 | 299,3 | 313,3 | 328,8 | 330,7 |
| Sumqayıt | 205,7 | 254,4 | 283,2 | 309,4 | 422,6 | 427,0 |
| Mingəçevir | 59,2 | 82,3 | 94,0 | 96,3 | 101,2 | 102,9 |
| Şirvan | 43,1 | 59,8 | 69,5 | 77,1 | 83,5 | 85,5 |
| Naxçıvan | 39,6 | 58,8 | 63,2 | 73,9 | 94,4 | 97,2 |

***Mənbə:*** *Azərbaycanın demoqrafik göstəriciləri 2024. səh 66-69, 74-76 [1].*

Ölkənin ən mühüm sənaye şəhərindən biri olan Gəncədə tədqiqat aparılan illər ərzində (1979-2023) əhalinin sayı 100 min nəfərdən az artmışdır. Şəhərdə urbanizasiya səviyyəsi (5,9%) çox aşağıdır.

Bakı şəhəri ilə müqayisədə Gəncə şəhərində əhali sayı və artımında çox böyük fərqin olması şəhərin sosial-iqtisadi inkişafının zəifliyini göstərir. Eyni hal Mingəçevir, Şirvan və Naxçıvan şəhərlərində də müşahidə olunur. Zəif urbanizasiya səviyyəsinə malik bu şəhərlər nəinki ətraf rayonların artan əhalisini cəlb etmək hətta öz əhalilərini belə saxlamaq iqtidarında deyillər.

Sumqayıt əhalisinin sayına görə bu gün ölkədə Bakıdan sonra ikinci şəhərdir. Tədqiqat aparılan dövr ərzində şəhərdə əhali 2,1 dəfə artmış, eyni dövrdə Bakı şəhər əhalisi 1,5 dəfə artmışdır. Lakin onun inkişafı, əhalisinin sayının artması bilavasitə Bakıya yaxın yerləşməsi ilə əlaqədardır. Həmçinin Bakı şəhəri ilə müqayisə də Sumqayıt şəhərində ev və torpaq qiymətlərinin ucuz olması Abşerona miqrasiya edən əhalini daha çox cəlb edir. Bu gün Abşeron yarımadasında yerləşən şəhər və qəsəbələr tikililər və yaşayış məntəqələrinin sıxlaşması hesabına demək olar ki, bir-biri ilə birləşmişdir. Sumqayıt və Xırdalan şəhərlərindən Bakı şəhərinə gündəlik iş və təhsil arxasınca miqrasiya edən əhalinin sayı kifayət qədər çoxdur və artmaqda davam edir.

Bakının ölkə məskunlaşma sistemindəki rolunu **iqtisadi, siyasi** və **sosial** aspektdə izah etmək olar. Bütün bu aspektlərdə uzun illərdir əsas gücə sahib olması şəhəri ölkənin məskunlaşma sisteminin mərkəzi kimi formalaşdırmış və bu proses indi də davam edir.

**İqtisadi aspekt** Bakının ölkə məskunlaşma sistemindəki rolunu təyin edən əsas faktorlardan biridir. Bakı Azərbaycan iqtisadiyyatının təməlini təşkil edir. Ölkə iqtisadiyyatının əsasını təşkil edən neft-qaz istehsalı və ona xidmət edən sənaye sahələrinin, xarici investorlar və ticarət dövriyyəsinin əsas hissəsinin Bakı şəhərində cəmlənməsi şəhər iqtisadiyyatını daha da gücləndirir, demoqrafik potensialın toplanmasına əlverişli şərait yaradır.

**Cədvəl 2.** *Azərbaycan Respublikası və Bakı şəhərinin ölkənin sənaye strukturunda payı*

| | 2015 | | 2023 | |
|---|---|---|---|---|
| | Azərb. R. | Bakı ş. | Azərb. R. | Bakı ş. |
| **Ümumi sənaye məhsulunun dəyəri, mln manatla** | **26 369** | **22 409** | **67296,0** | **56526,9** |
| **Hasilat sənayesi** | **16 362** | **16 103** | **45117,5** | **44419** |
| Yanacaq faydalı qazıntı hasilatı | 14723 | 14 592 | 42131,2 | 41854,3 |
| Digər faydalı qazıntılar | 141,2 | 33,7 | 572,2 | 154 |
| Bu sahəyə xidmət | 1497,8 | 1 477 | 2414,1 | 2410,7 |
| **Emal sənayesi** | **7880,4** | **5 021** | **18431,2** | **10448,6** |
| Neft emalı məhsulları | 2473,6 | 2 474 | 4525,4 | 4525,3 |
| Metallurgiya | 359,3 | 241,6 | 1362,9 | 903,9 |
| Maşınqayırma | 1169,5 | 967,9 | 1724,7 | 1309,9 |
| Kimya | 450,4 | 211 | 2270,8 | 585,1 |
| Tikinti materialları | 431,8 | 303,8 | 1191,0 | 771,9 |
| Yeyinti | 2769,1 | 749,1 | 6200 | 1861,5 |
| Yüngül | 95,5 | 34,2 | 522,3 | 204,1 |
| Meşə, ağac emalı, nəşriyyat | 131,2 | 45,3 | 634,1 | 286,9 |
| **Enerji istehsalı və təbii qaz hasilatı** | **1887,2** | **1 110** | **3140,4** | **1205,4** |
| **Su təchizatı və tullantı emalı** | **239,5** | **175,2** | **606,9** | **453,9** |
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 2 583 | 1170 | 4691 | 2687 |

***Mənbə:*** *Azərbaycanın sənayesi 2024. səh 31-41, 137 [6].*

Cədvəl 2-də Bakı şəhərinin ölkə sənaye strukturunda payı verilmişdir. 2015-ci ildə Bakı şəhəri ölkədə istehsal olunan sənaye məhsulunun 85%-ni, o cümlədən hasilat sənayesinin 98,4%-ni, emal sənayesinin 63,7%-ni, enerji istehsalı və təbii qaz hasilatının 58,8%-ni, su təchizatı və tullantılı emalının 73,2%-ni vermişdir. 2023-cü ildə ümumi sənaye məhsulunun 84%-ni, o cümlədən hasilat sənayesinin 98,5%-ni, emal sənayesinin 56,7%-ni, enerji istehsalı və təbii qaz hasilatının 38,4%-ni, su təchizatı və tullantılı emalının 74,8%-ni Bakının payına düşmüşdür. Rəqəmlərdən də göründüyü kimi, ümumi sənaye məhsulunun dəyərinə görə şəhərin payı tədqiqat aparılan illər ərzində demək olar ki

dəyişməmişdir. Şəhərdə ölkə üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin 2015-ci ildə 45,3%-i, 2023-cü ildə isə 57,3%-i cəmlənmişdir. Bu dövr ərzində ölkədə sənaye müəssisələrinin sayı 1,8 dəfə, Bakı şəhərində isə 2,3 dəfə artmışdır. 2023-cü ildə ölkə üzrə yeni açılan iş yerlərinin 79,6%-i Bakı şəhərində açılmışdır [15, s.39]. Hal-hazırda iqtisadi fəal əhalinin 24,1%-i, məşğul əhalinin isə 24,0%-i, o cümlədən sənayedə məşğul əhalinin isə 35,4%-i Bakı şəhərinin payına düşür [11, s.168]. Yeni açılan iş yerlərinin çox hissəsinin Bakı şəhərində açılması və bu tip müəssisələrin artım sürətinin ölkədən üstün olması ölkə əhalisinin şəhərdə cəmlənməsi prosesinin davam etməsinə, regionların işsiz əhalisinin şəhərə miqrasiyasına səbəb olur. Bu da öz növbəsində, ölkədə və Bakı şəhərində sosial-iqtisadi, ekoloji vəziyyətin gərginləşməsinə, iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərir, regionların inkişafı arasında fərqin artmasına, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına, təkmərkəzli iqtisadiyyatın yaranmasına gətirib çıxarır. Bunun üçün birinci növbədə ölkə iqtisadiyyatının neft və qaz hasilatı sənayesindən asılılığı azaldılmalı, regionların təbii və iqtisadi potensialına uyğun digər sənaye sahələri inkişaf etdirilməlidir.

**Siyasi aspektə** şəhərin paytaxt funksiyası və bununla əlaqədar olaraq hakimiyyət və idarəetmə orqanlarının şəhərdə yerləşməsi daxildir. Bu sahədə fəaliyyət göstərən müəssisələr və dövlət qulluğunda işləyən əhalinin daha çox hissəsinin şəhərdə cəmlənməsinə səbəb olur. Bu da öz növbəsində şəhərdə iş imkanlarını artırır. Belə ki, 2023-cu ildə ölkə üzrə dövlət qulluqçularının 50,5%-i Bakı şəhərinin payına düşmüşdür [7, s.129].

**Sosial aspektə** - sosial-mədəni və sosial-infrastruktur sahələrini daxil etmək olar. Sosial-infrastruktur məskunlaşma sahəsində fiziki məkanın qurulmasından daha geniş bir anlayışdır. O əhalinin həyat səviyyəsini, əmək məhsuldarlığını yüksəltmək, cəmiyyətin inkişafını dəstəkləmək və sosial rifahı təmin etmək üçün vacibdir. Sosial-infrastruktur sahələrinin inkişafı və səmərəli fəaliyyəti, əhalinin bu obyektlərə əlçatanlığı ərazinin inkişafının əsas göstəricilərindən biridir. Bakıda sosial-iqtisadi inkişaf səviyyəsinin yüksək olması şəhərdə geniş sosial-infrastruktur şəbəkəsinin formalaşmasına səbəb olmuşdur. Respublika üzrə sosial sferanın demək olar ki 80%-i Bakı şəhərində cəmlənmişdir [13, s.252]. Beləki ölkədə fəaliyyət göstərən əsas mədəniyyət ocaqlarının teatr, muzey, kino və konsert zallarının əksəriyyəti, universitetlər və digər elm, təhsil və səhiyyə ocaqlarının, həmçinin bu sahədə fəaliyyət göstərən özəl sektorların əhəmiyyətli hissəsi Bakı şəhərində yerləşir.

**Təhsil.** Təhsilin keyfiyyətinin yüksəldilməsi ərazinin ümumi sosial-iqtisadi inkişaf səviyyəsinin, elmi-texniki potensialının artmasına bir başa təsir edir. 2000-ci ildə ölkə üzrə məktəbəqədər təhsil müəsssisələrinin 22,8%-i, onlarda təlim-tərbiyə alan uşaqların 41,1%, 2023-cü ildə müvafiq olaraq 25,9% və 36,7%-i Bakı şəhərinin payına düşmüşdür (Cədvəl 3). Buna səbəb 2000-2023-cu illər ərzində həm ölkədə, həm də Bakı şəhərində bu tip müəssisələrin sayının artması və bu artımın qeyri-dövlət müəssisələrinin hesabına baş verməsidir. Belə ki, dövlət məktəbəqədər təhsil müəssisələrinin sayı müəssisələrin özəlləşdirilməsi, dövlət nəzarətinin zəifləməsi, müəssisələrin birləşdirilməsi, yeni müəssisələrin az tikilməsi, mövcud müəssisələrin maddi-texniki təminatının aşağı səviyyəsi və s. səbəblərdən azalmışdır. Bu sektorda ölkədə fəaliyyət göstərən qeyri-dövlət müəssisələrin 83,4%-inin Bakı şəhərində yerləşməsi və özəl müəssisələrin çoxunun kiçik, ödənişlərin yüksək olması və s. səbəblərdə onlarda təlim-tərbiyə alan uşaqların sayı da azdır. Bu da Bakı şəhərinin ölkə üzrə məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə alan uşaqların sayının nisbətən azalmasına səbəb olmuşdur.

Ölkədə ümumi orta məktəb təhsili əsasən ümumtəhsil məktəblərində, xüsusi təmayüllü təhsil müəssisələrində, gimnaziya, lisey, ilk və orta peşə-ixtisas məktəblərində, habelə kollec və ali təhsil müəssisələrinin nəzdində yaradılan məktəblərdə həyata keçirilir. Tədqiqat aparılan illər ərzində ümumi təhsil müəssisələrinin ölkədə sayı azalsa da, Bakı şəhərində əks hal müşahidə olunmuşdur. Bu illər ərzində şəhərdə həm dövlət, həm də özəl ümumi təhsil müəssisələrinin sayı artmışdır. Ölkədə ümumi təhsil müəssisələrinin azalmasına səbəb kəndlərdə bu tip müəssisələrin birləşdirilməsi (əhalinin azalması hesabına şagirdlərin sayının kifayət qədər olmaması), Bakı şəhərində isə əhalinin artması və mövcud müəssisələrin artan tələbatları ödəyə bilməməsi nəticəsində yeni məktəblərin tikilməsi olmuşdur. Beləki 2000-2023-cu illərdə şəhərdə dövlət ümumi təhsil müəssisələrinin sayı 315-dən 361-ə yüksəlmişdir. Tədqiqat aparılan illər ərzində ölkə üzrə ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin sayı 3,1% artsa da, Bakı şəhəri üçün bu göstərici 44,4% olmuşdur. 2023-cü ildə Bakı

şəhərinin payına ölkə üzrə ümumi təhsil müəssisələrinin 8,9%-i düşdüyü halda, onlarda təhsil alan şagirdlərin isə 31,9%-i düşür. Özəl sektor üzrə ölkədə fəaliyyət göstərən 34 ümumi təhsil müəssisəsindən 28-i Bakı şəhərində, onların 25-i isə şəhərin mərkəzi rayonlarında yerləşir. Ölkədə qeyri-dövlət ümumi təhsil məktəblərində təhsil alan şagirdlərin 89,8%-i Bakı şəhərinin payına düşür (Cədvəl 3).

***Cədvəl 3.*** *Azərbaycan Respublikası və Bakı şəhərinin təhsil müəssisələri*

| | 2000 | | 2010 | | 2023 | |
|---|---|---|---|---|---|---|
| | Azərb. R. | Bakı ş. | Azərb. R. | Bakı ş. | Azərb. R | Bakı ş. |
| **Məktəbəqədər təhsil müəssisələri, o cümlədən** | **1790** | **409** | **1638** | **365** | **1857** | **482** |
| dövlət | **1790** | **409** | 1623 | 351 | 1700 | 351 |
| qeyri-dövlət | - | - | 15 | 14 | 157 | 131 |
| Onlarda uşaqların sayı, nəfərlə | 111020 | 45580 | 112892 | 38273 | 116325 | 42688 |
| dövlət | 111020 | 45580 | 112111 | 37522 | 109857 | 37238 |
| qeyri-dövlət | - | - | 781 | 751 | 6468 | 5450 |
| **Ümumi təhsil müəssisələri, o cümlədən** | **4548** | **315** | **4532** | **366** | **4422** | **389** |
| dövlət | 4548 | 315 | 4515 | 353 | 4388 | 361 |
| qeyri-dövlət | - | - | 17 | 13 | 34 | 28 |
| Onlarda şagirdlərin sayı, nəfərlə | 1653703 | 375893 | 1324564 | 351765 | 1704217 | 542919 |
| dövlət | 1653703 | 375893 | 1318123 | 347653 | 1680733 | 521820 |
| qeyri-dövlət | - | - | 6441 | 4112 | 23484 | 21099 |

***Mənbə:*** *Azərbaycanın regionları 2023. səh 75-76 [2]. Azərbaycanda təhsil, elm və mədəniyyət 2024. səh 226 [4].*

Ölkənin ali təhsil müəssisələri demək olar ki, Bakı şəhər ərazisində cəmlənmişdir. Belə ki, ali təhsil müəssisələrinin 80,4%-i, onlarda tələbələrin isə 75,6%-i paytaxt şəhərin payına düşür. Bu sahədə fəaliyyət göstərən 11 qeyri-dövlət ali təhsil müəssisəsinin 10-u Bakı şəhərində yerləşir. Nəticədə hər il ali təhsil müəssisələrinə qəbul olan tələbələrin Bakıda, xüsusilə onun mərkəzi inzibati rayonlarında - Yasamal (11 ali təhsil müəssisəsi), Nərimanov (8 ali təhsil müəssisəsi), Nəsimi (6 ali təhsil müəssisəsi), Səbail (5 ali təhsil müəssisəsi) toplanmasına səbəb olur [4, s. 263-265].

**Səhiyyə.** Eyni hal səhiyyə müəssisələri və onların ölkə ərazisində paylanmasında da müşahidə olunur. Tədqiqat aparılan illər ərzində ölkədə fəaliyyət göstərən xəstəxanaların sayı müəssisələrin birləşdirilməsi hesabına 739-dan 338-ə enmişdir. Bakı şəhərində isə əksinə bu say 96-dan 155-ə yüksəlmişdir. 2010-cu ildən sonra səhiyyə sahəsində aparılan islahatlar prosesində kəndlərdə olan xəstəxanaların əksəriyyəti bağlanmış, inzibati rayonlarda mərkəzləşmiş xəstəxanalar şəbəkəsi qurulmuşdur [9, s. 129]. Nəticədə ölkə üzrə xəstəxanaların sayı kəskin azalmışdır.

Bu gün ölkə üzrə fəaliyyət göstərən xəstəxanaların 45,9%-i Bakı şəhərində yerləşir. Xəstəxanaların əksəriyyətinin Bakı şəhərində cəmlənməsi bu sahədə fəaliyyət göstərən mütəxəssisləri də şəhərə cəlb edir. 2000-2023-cü illərdə ölkədə həkimlərin sayı 17,9%, Bakı şəhərində isə 48,4% artmışdır. 2000-ci ildə ölkə üzrə həkimlərin 53,7%-i, 2023-cü ildə 67,6%-i Bakı şəhərinin payına düşmüşdür. Əhalinin hər 10 000 nəfərinə görə bu göstərici ölkə üzrə azalsa da, Bakı şəhərində isə əksinə artmışdır. 2000-ci ildə Bakı şəhəri əhalinin hər 10 000 nəfərinə həkimlərlə təminatda ölkə üzrə orta göstəricidən 2,3 dəfə, 2010-cu ildə 2,4 dəfə, 2023-cü ildə isə 2,9 dəfə çox olmuşdur. Eyni hal orta tibb işçilərinin ölkə ərazisində fəaliyyətində də müşahidə olunur. 2000-ci ildə ölkə üzrə orta tibb işçilərinin 32,2%-i, 2010-cü ildə 35,3%-i, 2023-cü ildə isə 44,1%-i Bakı şəhərində cəmlənmişdir. Tədqiqat aparılan illər ərzində orta tibb işçilərinin sayı ölkədə 8,3% azalmış, Bakı şəhərində isə 13,8% artmışdır. Əhalinin hər 10 000 nəfərinə orta tibb işçiləri ilə təminatda həm ölkədə, həm də Bakı şəhərində azalma müşahidə olunmuşdur. 2000-ci ildə Bakı şəhəri ölkə üzrə bu göstəricidə 1,4 dəfə, 2010-cu ildə 1,5 dəfə, 2023-cü ildə isə 1,9 dəfə çox olmuşdur [5, s. 83].

**Mənzil təsərrüfatı.** Sosial infrastrukturun ən mühüm sahələrindən biri mənzil kommunal təsərrüfatıdır. İnsanların yaşaması və aktiv həyat tərzi keçirməsi, hər tərəfli fəaliyyət göstərməsi üçün onların mənzil ilə təmin olunması zəruridir. Ölkədə və Bakı şəhərində mənzil tikintisi 2000-ci illərin əvvələrindən qəbul edilən Dövlət Proqramlarının həyata keçirilməsi ilə artmağa başladı. 2010-cu ildən sonra daha geniş vüsət aldı. 2000-2023-cü illər ərzində ölkədə ümumi mənzil fondu 2 dəfə, hər nəfərə düşən mənzil sahəsi 1,6 dəfə, Bakı şəhərində isə müvafiq olaraq 2,4 və 2,6 dəfə artmışdır. 2000-ci ildə ölkənin ümumi mənzil fondunun 22,9%-i, 2023-cü ildə isə 26,6%-i Bakı şəhərinin payına düşmüşdür. Şəhər 2000-2010-cu illərdə bir sakinə orta hesabla düşən yaşayış sahəsinə görə orta respublika göstəricisindən aşağı olmuşdu. 2010-2023-cü illərdə şəhərdə bir sakinə orta hesabla düşən yaşayış sahəsi 2,9 dəfə artmışdır. Bu artım 2010-cu ildən sonra 5-9 mərtəbəli binaların sökülərək yerində tikilən yüksək mərtəbəli binaların və daha çox şəhər ətrafı ərazilərdə tikilən fərdi yaşayış evlərinin hesabına olmuş və hal hazırda ölkə üçün bu göstəricidən 1,2 dəfə yüksəkdir [5, s. 214]. Nəzərə alsaq ki, bu gün şəhərdə kifayət qədər qeydiyyatsız yaşayan əhali var, onda bu göstəricinin real rəqəmləri əks etdirmədiyini deyə bilərik.

**Nəticə**

1897-2023-cü illər ərzində Bakı şəhər əhalisi 20,9 dəfə, eyni dövrdə Azərbaycan əhalisi isə 5,6 dəfə artmışdır.

2019-cu ilədək Bakı şəhərinə ölkə daxilindən 425,3 min nəfər əhali miqrasiya etmişdir. Onların 393,7 min nəfəri və ya 92,6%-i şəhərlərdən, 31,6 min nəfəri və ya 7,4%-i kəndlərdən gələnlər təşkil etmişdir.

Ölkədə şəhərlərin urbanizasiyalaşma səviyyəsində ciddi fərqlər hələ də qalmaqdadır. Belə ki, Bakı şəhərində ölkə ümumi şəhər əhalisinin 42,3%-i, Gəncədə 5,9%-i, Sumqayıtda 7,7%-i, Mingəçevirdə 1,9%-i, Şirvanda 1,5%-i, Naxçıvanda 1,8%-i məskunlaşıb. Sumqayıtdan başqa digər şəhərlərin ümumi şəhər əhalisində payı tədricən azalır.

2023-cü ildə ölkə üzrə ümumi sənaye məhsulunun 84%-i, o cümlədən hasilat sənayesinin 98,5%-i, emal sənayesinin 56,7%-i Bakı şəhərinin payına düşmüşdür.

Ölkədə məktəbəqədər və ümumi təhsil müəssisələrinin sayı azalsa da, Bakı şəhərində artmışdır. 2023-cü ildə ölkə məktəbəqədər təhsil müəsssisələrinin 25,9% -i, onlarda təlim-tərbiyə alan uşaqların 36,7%-i, ümumi təhsil müəssisələrinin müvafiq olaraq 8,9%-i və 31,9%-i Bakı şəhərinin payına düşmüşdür.

2000-2023-cü illər ərzində ölkə üzrə ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin sayı 3,1% artsa da, Bakı şəhəri üçün bu göstərici 44,4% olmuşdur.

Tədqiqat aparılan illər ərzində ölkədə həkimlərin sayı 17,9%, Bakı şəhərində isə 48,4% artmışdır. Xəstəxanaların sayı ölkə üzrə 2,2 dəfə azalsa da, Bakı şəhərin də isə 1,6 dəfə artmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı: 2024, DSK, s. 614
2. Azərbaycanın regionları. Bakı: 2024, DSK, s. 828
3. Azərbaycan Respublikası əhalinin siyahıyaalınması 2019-cu il, [XXV cild]. Bakı 2022. s. 512
4. Azərbaycanda təhsil, elm və mədəniyyət 2024. s. 226
5. Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil şəraiti 2024. s. 259
6. Azərbaycanın sənayesi 2024. s. 283
7. Dövlət qulluqçuları 2024. s.218
8. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı: 2005, s. 560
9. Eminov Z.N., Rzayeva, S.İ. Azərbaycan Respublikasında əhalinin həyat keyfiyyətinin müasir vəziyyəti. Bakı: 2022. s. 240
10. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Geourbanistika. Bakı: 2016. s. 272
11. Əmək Bazarı. Bakı, DSK, 2024. s. 190
12. Лаппо Г.М. География городов: учеб.пособие для геогр.фак. М: 1997. с. 478

13. Z.A. Mirzəyeva. Bakı şəhərində müasir demoqrafik vəziyyətin sosial-iqtisadi problemləri // Azərbaycan Coğrafiya Cəmiyyəti "Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu" mövzusunda Respublika elmi-praktiki konfrans, Bakı 2023. s. 250-254.
14. Озерова, Г.Н., Покшишевский, В.В. География, человеческие процессы, урбанизация. Москва: 1981. с. 189
15. Yeni iş yerləri yanvar 2024. s. 233

## SUMMARY

## ROLE OF BAKU CITY IN THE COUNTRY'S SETTLEMENT SYSTEM

**Zakir Eminov**
**Zeynab Mirzayeva**

The city of Baku, with its capital position and high socio-economic development, plays a key role in the formation of the country's settlement system. The socio-economic and demographic development of the city makes it the only and main urbanization center of the country. As a result, compared to the cities and regions of Azerbaijan, the population of Baku is increasing rapidly, and the process of population polarization continues. According to the 2019 census materials, 425,300 people migrated to Baku from within the country until 2019. 393.7 thousand people or 92.6% of them came from cities, 31.6 thousand people or 7.4% came from villages.

In the article, the population growth and the level of urbanization in the city of Baku during the period of 1979-2023 were compared with the same indicators for the cities with the largest population of the country (Ganja, Nakhchivan, Sumgait, Shirvan and Mingachevir). Also, the role of the city in the country's settlement system, which has been the main force for more than a century - has been analyzed in economic, social and political aspects, and the solutions to the problems revealed as a result of research have been substantiated.

**Keywords:** *Baku city, settlement system, urban population, economic development, social development*

## РЕЗЮМЕ

**Закир Эминов**
**Зейнаб Мирзаева**

## РОЛЬ ГОРОДА БАКУ В СИСТЕМЕ РАССЕЛЕНИЯ СТРАНЫ

Город Баку, обладающий столичным положением и высоким социально-экономическим развитием, играет ключевую роль в формировании системы расселения страны. Социально-экономическое и демографическое развитие города делает его единственным и главным центром урбанизации страны. В результате, по сравнению с городами и районами Азербайджана, население Баку быстро увеличивается, и процесс поляризации населения продолжается. Согласно материалам переписи, до 2019 года в Баку из страны мигрировали 425,3 тыс. человек. Из городов приехали 393,7 тыс. человек, или 92,6%, из сел - 31,6 тыс. человек, или 7,4%.

В статье прирост населения и уровень урбанизации в городе Баку в период 1979-2023 годов сравнивались с аналогичными показателями для городов с самым большим населением страны (Гянджа, Нахчыван, Сумгаит, Ширван и Мингячевир). Также проанализирована роль города в системе расселения страны, являющегося основной силой на протяжении более века, в экономическом, социальном и политическом аспектах, а также пути решения выявленных в результате исследований проблем. обосновано.

**Ключевые слова:** *город Баку, система расселения, городское население, экономическое развитие, социальное развитие*